

**Eskişəhər valisilə görüş**

səh. 2

**Hüquq təhsilinin yeni inkişaf mərhələsi**

səh. 2

**Universitet birinci olub**

səh. 3




Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 05 (1428) 27 aprel 2012-ci il


## Əhməd Cavad - 120

Prezident İlham Əliyevin Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, böyük şair və maarifçi, tanınmış ictimai xadim, Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavadın anadan olmasının 120 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncama əsasən bir sıra tədbirlər keçirilir. Bakı Dövlət Universitetində də görkəmli Azərbaycan şairinin anadan olmasının 120 illik yubileyi münasibətilə tədbir keçirilib.



səh. 3

# İstiqlal şairinin 120 illiyi qeyd olunub



*PREZIDENT İLHAM ƏLIYEVIN SƏRƏNCAMINDAN:* ***“Xalqımızın müstəqillik ideallarına bütün həyatı boyu sadiq qalan Əhməd Cavad Azərbaycan poeziyasında yeni bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Şairin zəngin yaradıcılığı milli azadlıq və istiqlal uğrunda mübarizə motivlərinin aparıcı mövqeyi ilə səciyyələnərək dövrün ictimai-siyasi mənzərəsini dolğun əks etdirir”***


**POÇT QUTUSU** səh. 2

**Şərqşünas alimin yubileyi qeyd edilib** səh. 2

**"Unudulmağa məhkum" kitabının təqdimatı** səh. 2

**Çempionata start verildi** səh. 2

**Şərəfli ömrün səhifələri** səh. 5

**Düzgün danışmağın gözəlliyi** səh. 6

**Amerikan nəsrinin görkəmli nümayəndəsi** səh. 6

**Tələbələr müsabiqədə iştirak ediblər** səh. 3

***Müəllimlər imtahanda...*** səh. 2

**XÜLYALAR, XƏYALLAR VƏ REALLIQLAR** səh. 7

**Bizim görkəmli alim** səh. 6

***Elanlar*** səh. 8

***“Universitet tarixi fotoların dili ilə”*** səh. 4

**SUFOLK universitetinin nümayəndə heyəti BDU-da** səh. 8





***Dost qazanmaq və adamlara təsir göstərmək sənəti*** səh. 7

## POÇT QUTUSU

### Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, akademik Abel Məhərrəmova

Hörmətli Abel müəllim!

1991-ci il dekabrın 1-də ümummilli liderimiz Heydər Əliyevin imzası ilə həyat vəsiqəsi alan və 1992-ci ildən etibarən əvvəlcə ümumtəhsil məktəbləri və hazırlıq kursları ilə, bir il sonra isə Qafqaz Universiteti ilə Azərbaycan təhsil sisteminə daxil olan "Çağ" Öyrətim Şirkətinin 20-ci ildönümünü qeyd etdiyimiz bu günlərdə "20 il etimada sədaqətlə" devizi altında bir çox yubiley tədbirləri keçirilir. Bu tədbirlər çərçivəsində Respublika Təhsil Nazirliyi ilə birgə "Müasir Azərbaycan təhsili və "Çağ" Öyrətim" mövzusunda keçirilən elmi-nəzəri konfransda iştirakınız və "Çağ" Öyrətim Şirkəti və müvafiq müəssisələrinin fəaliyyəti haqqında ifadə etdiyiniz yüksək, dəyərli fikirlərinizə görə şirkətimizin bütün professor-müəllim heyəti və tələbə kollektivi adından təşəkkür edirik.

"Çağ" Öyrətim Şirkəti və Qafqaz Universiteti olaraq devizimizdə də ifadə etdiyimiz kimi, bundan sonra da etimada sədaqətlə yolumuza davam edəcək, Sizin kimi bizlərə etimad göstərən bütün dövlət xadimlərinin, elm adamlarının, iş dünyasının, valideynlərin, tələbələrin - bir sözlə, başda möhtərəm prezidentimiz İlham Əliyev cənabları olmaqla, bütün Azərbaycan xalqının yüksək fikirlərinə layiq məsuliyyət anlayışı ilə təhsil fəaliyyətlərimizi davam etdirəcəyik.

Yüksək elmi-praktik əhəmiyyətə malik çıxışınız üçün bir daha təşəkkür edir, fəaliyyətlərinizdə uğurlar arzulayırıq.

**Dərin hörmət və ehtiramla,**
**Rektor: professor Ahmet Saniç**

## Futbol çempionatına start verildi



Aperin 14-də Bakı Dövlət Universitetinin futbol meydançasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə universitetin 17 fakültəsi, eyni zamanda MDU-nun Bakı filialının tələbələri arasında futbol yarışının təntənəli açılış mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, akademik Abel Məhərrəmov son illərdə ölkəmizdə idmana göstərilən xüsusi dövlət qayğısından danışıb. Bildirib ki, ulu öndərin xatirəsinə həsr olunmuş futbol yarışları may ayında yekunlaşacaq və qalib müəyyən olunacaq. Çıxış edən Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının birinci vitse prezidenti, millət vəkili Rauf Əliyev və YAP Yasamal royon təşkilatının sədri Fikrət İsmayılov çıxış edərək, BDU-da hər il keçirilən bu yarışmanın əhəmiyyətindən danışıb və komandalara uğurlar arzulayıblar. Daha sonra dövlət himni səslənilib və idman kafedrasının müdiri Akif Atakişiyev tədbirin proqramını elan edib. Tədbir konsetr proqramı ilə davam edib, fakültələr arasında futbol oyunu izlənilib.

## Müəllimlər imtahanda...

BDU-nun rektoru, akademik Abel Məhərrəmovun R-21 saylı 14.02.2012-ci il tarixli əmrini icra etmək məqsədi ilə aprelin 7-də "İngilis dili" kafedralarının ayın 11-də isə "Alman və fransız dili" ştatda olan və saat hesabı qaydada dərs deyən müəllimləri üçün ingilis dilindən test imtahanları təşkil olunub. İmtahanda digər təşkilatlardan müraciət edən müəllimlər də iştirak ediblər. İki saat ərzində keçirilən imtahanda 100-ə yaxın müəllim iştirak edib. İmtahana nəzarət Attestasiya komissiyasının üzvləri tərəfindən həyata keçirilib. Rektor Abel Məhərrəmov imtahan prosesində iştirak edən müəllimlərlə görüşündə qeyd edib ki, təhsilin bakalavriat və magistratura pillələri üzrə mütəxəssis hazırlığının Bolonya prosesinin tələblərinə uyğun həyata keçirilməsində xarici dillərin tədrisi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan universitetdə ayrı-ayrı ixtisaslar üzrə müasir təlim metodları və texnologiyalarını tətbiq etməklə xarici dilləri tədris edən müəllimlərin elmi-pedaqoji səviyyəsinin yüksəldilməsi üçün onların attestasiyasının keçirilməsinə ehtiyac vardır.

# Əsmətxanım Məmmədova - 70




Tanınmış şərqşünas alim, İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmədovanın 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Rektor, akademik Abel Məhərrəmov yubilyarı təbrik edərək, onun elmi, pedaqoji, ictimai-siyasi fəaliyyətinindən danışıb. 45 illik pedaqoji təcrübəyə malik Ə.Məmmədovanın 150-yə yaxın məqaləsinin ölkəmizdə və xaricdə çap olunduğunu deyən rektor onun fars vurğusunun təbiətinə aid eksperimentə əsaslanan 60 səhifəlik məqaləsinin İranda müxtəlif dillərdə 4 dəfə çap olunduğunu da diqqətə çatdırıb. Qeyd edib

## Şərqşünas alimin yubileyi qeyd edilib



ki, alimin elmi axtarış və düşüncələrini ehtiva edən bu tədqiqat işləri fars dilinin tədrisində xüsusi yer tutur və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. 10 kitabın müəllifi Ə.Məmmədova iki dəfə Milli Məclisin deputatı seçilib.

Tədbirdə İran filologiyası kafedrasının müdiri, professor Mehdi Kazımov alımın həyat və elmi yaradıcılığı haqqında danışıb. Məlum olub ki, Əsmətxanım Məmmədova 1941-ci ildə Bakının Maştağa kəndində ziyalı ailəsində anadan olub, 1958-ci ildə 187 nömrəli məktəbi əla qiymətlərlə bitirib və BDU-nun şərqşünaslıq fakültəsinin fars şöbəsinə qəbul olunub. Hələ tələbə olarkən "Fars ədəbi dili və Tehran dialektində baş verən fonetik dəyişikliklər" məruzəsinə görə Moskva Dövlət Universitetinin Fəxri fərmanı və fəxri tələbə bileti ilə təltif edilib. 1965-ci ildə universiteti bitirən Ə. Məmmədova Elmi Şuranın qərarı ilə kafedrada saxlanılıb, 1966-cı ildə aspiranturaya daxil olub. Onun 2007-ci ildə nəşr olunan "Fars dilində vurğu" eksperimental tədqiqat işi yalnız fars dilçiliyi üçün deyil, həmçinin ümumi dilçilik üçün təcrübi nəticələrlə zəngindir. "Fars dilinin orfoqrafiyası" kitabı bu sahədə mütəxəssislər və tələbələr üçün əyani vəsait kimi nəzərdə tutulub. Alimin "Lətifələr, yumoristik hekayələr və tapmacalar" adlı ədəbi dil və danışıq dili ilə müqayisə əsasında (disklə birgə) çap olunan dərs vəsaiti fakültə tarixində ilk təcrübədir.

Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə, parlamentin deputatları Elton Məmmədov, Qənirə Paşayeva, Ombudsman Elmira Süleymanova, universitetin ilahiyyat fakültəsinin dekanı Vasim Məmmədəliyev, Akademiyanın Dilçilik İnstitutunun direktoru Fəxrəddin Veysəlli, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova, Xalq artisti Əlibaba Məmmədov və digərləri yubilyarı təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

# "Unudulmağa məhkum" kitabı təqdim edilib





Aprelin 11-də Tarix fakültəsində tarix elmləri doktoru, professor Eldar İsmayılovun "Stepan Şaumən - obreçennıy na zabvenie -portret "leqendarnoqo kommunara" bez retuşi" ("Stepan Şaumyan - Unudulmağa məhkum edilmiş - "əfsanəvi kommunarın" retuşsuz portreti" kitabının təqdimatı keçirilib. Tədbirdə çıxış edən rektor, akademik Abel Məhərrəmov belə bir kitabın ərsəyə gəlməsini mühüm hadisə adlandırıb. Qeyd edib ki, bu tədqiqatda Bakıda və Moskvada saxlanılan arxiv materiallarından, sənədli məcmuələrdən, Şaumyanın özünün yazdığı məqalələrdən istifadə edilib. Kitab Şaumyanın uşaqlıq və gənclik illərini, təhsil dövrünü, onun ilk inqilabi addımlarını və siyasi baxışlarını, yazışmalarını, Oktyabr inqilabından sonrakı fəaliyyətini əhatə edir. Rektor əlavə edib ki, kitab S.Şaumyanın kimliyini açmaq, azərbaycanlılara qarşı fəaliyyətini geniş araşdırmaq baxımından son dərəcə faydalıdır.

Tarix fakültəsinin professoru Lətifə Həsənova da kitabın əhəmiyyəti və özəlliyindən danışıb. Deyib ki, erməni millətinə mənsub olan Şaumyan Azərbaycana milli təyini-müqəddərat hüququ verilməsini təklif edən Azərbaycan partiyalarına xüsusi nifrət bəsləyirdi. Qatı bolşevik olan Şaumyan azərbaycanlılara inanmır, Bakıda nəyin bahasına olursa-olsun bolşeviklərin hakimiyyətini qurmağa, öz məqsədlərinə çatmasına mane olan qüvvələri aradan qaldırmağa çalışırdı. Məhz bu səbəbdən o, erməni millətçiləri ilə əməkdaşlıq etməyə məcbur idi.

Müəlliflə 20 ildən artıqdır ki, eyni kafedrada işlədiyini deyən professor Tofiq Vəliyev kitabı Azərbaycanın patoloji düşmənlərindən biri haqqında, zəngin materiallar əsasında yazılmış dəyərli monoqrafiya adlandırıb. Professorlar İbrahim Zeynalov, Solmaz Rüstəmova, dosentlər - Boran Əziz və Nuru Məmmədov kitab haqqında dəyərli fikirlərini bölüşüblər.

Sonda çıxış edən müəllif Eldar İsmayılov kitabın yazılması mərhələsində ona maddi və mənəvi dəstək olan bütün insanlara minnətdarlıq edib.

Səhifəni təqdim etdi: **Mətbuat və İnformasiya şöbəsi**

# İstiqlal şairinin 120 illiyi qeyd olunub

***Prezident İlham Əliyevin Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, böyük şair və maarifçi, tanınmış ictimai xadim, Azərbaycan Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavadın anadan olmasının 120 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncama əsasən bir sıra tədbirlər keçirilir. Bakı Dövlət Universitetində də görkəmli Azərbaycan şairinin anadan olmasının 120 illik yubileyi münasibətilə tədbir keçirilib.***



Əvvəlcə Dövlət Himni səsləndirilib.

Tədbiri filologiya fakültəsinin dekanı, filologiya elmləri namizədi, dosent Məhərrəm Vəliyev açaraq, Əhməd Cavad yaradıcılığına nəzər salıb, onun kədərli taleyindən danışıb. M.Vəliyev çıxışında Əhməd Cavadın bütün ömrünü Azərbaycan xalqına, bütövlükdə Türk dünyasına həsr etdiyini bildirib, şairin yaradıcılığında milli azadlıq və istiqlal uğrunda mübarizə motivlərinin zəngin olduğunu diqqətə çatdırıb.

Bakı Dövlət Universiteti Həmkarlar Təşkilatının sədri Fikrət Şiriyev də Əhməd Cavadın zəngin irsi yaradıcılığından söhbət açıb, onun Azərbaycan ədəbiyyatı, Türk dünyası qarşısındakı xidmətlərindən bəhs edib. A.Şiriyev Ə.Cavadın milli ruhda yazıb-yaradan şair olmaqla bərabər, həm də Azərbaycan tərcümə ədəbiyyatına öz töhfələrini verdiyini nəzərə çatdırıb, şairin Fransua Rablenin «Qarqantua və Pantaqruel», Vilyam Şekspirin "Otello", "Romeo və Cülyetta", Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərlərini tərcümə etdiyini vurğulayıb.

Professor Tofiq Hüseynoğlu Əhməd Cavadın poemalarında dövrün haqsızlıqlarına qarşı ucaltdığı etiraz səsinin aydın duyulduğunu, elə bu motivlərə görə repressiya qurbanına çevrildiyini deyib. Əhməd Cavadın 30-cu illərdə "Moskva" poemasını qələmə aldığını, lakin bu əsərinə görə də xeyli təzyiqlərə məruz qaldığını bildirən T.Hüseynoğlu şairin sovet hakimiyyətinin qəlbinə dəhşətli bir xof saldığını qeyd edib. Professor hətta o dövrdə Əhməd Cavada salam verən insanların belə Cavadçılar kimi qələmə verilib mühakimə edildiyini diqqətə çatdırıb. Ə.Cavadın yaradıcılığının əks olunduğu qaynaqlarda xeyli yanlışlıqlar olduğunu deyən T.Hüseynoğlu onun yaradıcılığının yenidən araşdırılmasına gərək duyulduğu fikrini irəli sürüb.

Türkologiya kafedrasının professoru, AMEA-nın müxbir üzvü Tofiq Hacıyev çıxışında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycan ədəbiyyatına dəyərli töhfələr vermiş Əhməd Cavadın 120 illik yubileyinin keçirilməsi üçün imzaladığı sərəncama universitetin dərhal reaksiya verməsini yüksək qiymətləndirib. Professor bu gün - Azərbaycan xalqının milli varlığının və gələcəyinin həll edildiyi zamanda milli ideologiyanın tükənməz mənbəyi kimi Əhməd Cavada, onun mirasına doğru uzanan xalq cığırlarını açmağın zəruri olduğunu, gənclərin milli vətənpərvərlik ruhunda yetişməsi üçün Əhməd Cavad yaradıcılığının oxumasının vacibliyini vurğulayıb. T.Hacıyev şairin şeirlərində milli oyanışa, öz milli "mənliy"inin əldə edilməsinə, tarixdə layiqli yer tutmağa səsləyişin güclü olduğunu bildirib. Siyasi lirik şeirin bünövrəsini məhz Əhməd Cavadın qoyduğunu diqqətə çatdıran professor onun öz şeirlərində hər zaman bayrağa torpağın hökmdarı kimi baxdığını deyib.

Filologiya elmləri doktoru Almaz Məmmədova Ə.Cavadın "diriykən əyninə kəfən geyinmiş, yalın yumruqları ilə zülmün qapısını döyəcləyən" cəsarətli bir sənətkar olduğunu deyib, sonra şairin həyat və yaradıcılığı haqqındakı qeydlərini məruzə şəklində səsləndirib.

Tədbirdə həmçinin Əhməd Cavadın həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş etdirilib və universitetin filologiya fakültəsinin tələbələrinin ifasında görkəmli şairin şeirləri səsləndirilib.

# Eskişəhər valisi BDU-da olub

***Aprelin 19-da Türkiyənin Eskişəhər valisi Qədir Qoçdəmirin başçılıq etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetində olub.***

Qonaqları qəbul edən rektor, akademik Abel Məhərrəmov universitetin tarixi, xarici əlaqələri və Türkiyə universitetləri ilə əməkdaşlığından danışıb, bu səfərə böyük əhəmiyyət verdiyini deyib. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının daimi və əbədi olmasından söz açan rektor bu səfəri əməkdaşlığın gələcək perspektivləri baxımından uğurlu hesab edib.

Vali Qədir Koçdəmir, öz növbəsində, Əskişəhərin 2013-ci ildə türk dünyasının mədəniyyət paytaxtı seçildiyini və bununla bağlı olaraq Azərbaycanın da iştirak edəcəyi tədbirlərin planlaşdırıldığını qeyd edib. Qonaq Türkiyədə təhsil alan azərbaycanlı tələbələrdən, habelə Azərbaycanda təhsil alan türkiyəli tələbələrdən danışıb.




Qeyd edək ki, 2011-ci ilin avqust ayında Eskişəhər valisi vəzifəsinə təyin olunan Qədir Qoçdəmir "Azərbaycan-Türkiyə arasındakı qardaşlıq əlaqələrinin və Türk mədəniyyətinin inkişafına verdiyi töhfələrinə" görə 2004-ci ildə Azərbaycan Vektor Beynəlxalq Elm Mərkəzi tərəfindən fəxri doktor adına layiq görülüb.

Azərbaycana etdiyi rəsmi səfər zamanı Qədir Qoçdemir Gəncəni də ziyarət edib. Səfər zamanı Gəncə və Eskişəhərin qardaşlaşması haqqında protokol imzalanıb.

# Azərbaycan-Türkiyə Enerji razılaşmaları

Aprelin 13-də BDU-nun və Türk Dünyası Öyrənci Dərnəyi Azərbaycan Təmsilçiliyinin Təşkilatçılığı ilə universitetdə "Azərbaycan-Türkiyə Enerji razılaşmalarının Avropanın enerji təhlükəsizliyi və bölgənin geosiyası vəziyyətinə təsiri" mövzusunda tədbir keçirilib.

Gənclərin də qatıldığı bu tədbirdə BDU-nun Beynəlxalq əlaqələr və iqtisadiyyat fakültəsinin müəllimi Bəxtiyar Aslanbəyli Türkiyə və Azərbaycan arasında bağlanmış enerji müqavilələrinin əhəmiyyətindən, Prezident yanında İdarəçilik Akademiyası Strateji Araşdırmalar Mərkəzinin Xarici Siyasət şöbəsinin müdiri, Qafqaz



Universiteti Beynəlxalq Əlaqələr fakültəsinin dekanı Rövşən İbrahimov Türkiyə və Azərbaycan arasındakı enerji müqavilələrinin tarixindən, Türkdilli Ölkələr Parlament Assambleyasının baş katibi Ramil Həsənov bölgənin geosiyasi durumundan bəhs ediblər.

Sonda gənclərin çoxsaylı suallları cavablandırılıb.

# BDU birinci olub

***Beynəlxalq Ali Təhsil və Elmlər Akademiyası (International Academy of Sciences and Higher Education (İASHE), London, Böyük Britaniya) postsovet dövlətlərində İASHE-nin rəsmi partnyoru olan Ümum Ukrayna Akademik Birliyi (Kiyev-Odessa) ilə birgə postsovet məkanına daxil olan ölkələr arasında elmi analitika üzrə regional yarışmanın test proqramını reallaşdırıb. Bu yarışma İASHE-nin "Elmi analitika üzrə kontinental, milli və regional yarışmalar və dünya çempionatı" layihəsi çərçivəsində keçirilib.***

Beynəlxalq Ali Təhsil və Elmlər Akademiyası tərəfindən 2011-ci ildə elmi analitika üzrə keçirilən yarışma və konfransların nəticələrinə görə aşağıdakı reytinqlər tərtib edilib:

- Ali Təhsil Müəssisələrinin elmi-tədqiqat sahəsində aktivliyi
- Ali Təhsil Müəssisələrinin elmi-tədqiqat sahəsində effektivliyi
- Gənc alim və tələbə gənclərin elmi-tədqiqat sahəsində aktivliyi
- Gənc alim və tələbə gənclərin elmi-tədqiqat sahəsində effektivliyi.

Layihədə əldə olunan nailiyyətlərin yekununa əsasən, BDU bu reytinqlər üzrə aparıcı yerləri tutub. Beləliklə, Azərbaycan ali təhsil müəssisələrinin flaqmanı "Ali Təhsil Müəssisələrinin elmi-tədqiqat sahəsində aktivliyi" nominasiyası üzrə 1-ci, "Ali Təhsil Müəssisələrinin elmi-tədqiqat sahəsində effektivliyi" nominasiyası üzrə 2-ci, "Gənc alim və tələbə gənclərin elmi-tədqiqat sahəsində aktivliyi" nominasiyası üzrə 3-cü və nəhayət "Gənc alim və tələbə gənclərin elmi tədqiqat sahəsində effektivliyi" nominasiyası üzrə 21-ci yeri tutub.







Bununla belə, İASHE-nin Ekspertlər Şurası Bakı Dövlət Universitetini beynəlxalq qızıl nişanəsi olan "Sokrat Medalı" ilə təltif edib.

✍ **Nigar**

# Tələbələr müsabiqədə iştirak ediblər

Aprelin 9-da Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2007-ci il tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Bakı Dövlət Universitetinin bakalavr, magistratura və doktorantura pillələri üzrə xaricdə təhsil almaq istəyən universitet tələbələrinin və gənc tədqiqatçıların ingilis, alman və fransız dilləri üzrə tələb olunan sertifikatlarının əldə edilməsi məqsədi ilə BDU-da dil kurslarının təşkili nəzərdə tutulmuşdur. Bu məqsədlə Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, professor İ.Əliyeva, İngilis dili kafedralarının müdirləri A.Abbasov, B.Hacıyev, Alman və fransız dili kafedrasının müdiri E.Fərəcullayeva, Xarici tələbələrlə iş üzrə dekan G.Rəhimova, Hüquq fakültəsinin dekan müavini G.Kərimov, Xarici tələbələrlə iş üzrə dekan müavini K.Eyyubov və Beynəlxalq əlaqələr və koordinasiya departamentin rəhbəri S.Yusifovanın iştirakı ilə tələbələr üçün müsabiqə təşkil olunmuşdur. Müsabiqədə 100-ə yaxın tələbə iştirak etmişdir.

# Fransa səfirliyinin əməkdaşları tarix fakültəsində olub

Tarix fakültəsində Fransanın ölkəmizdəki səfirliyinin əməkdaşları - Vənsan Lorenzini və Dmitri Valetskinin iştirakı ilə tədbir keçirilib. Çıxış edən qonaqlar tələbələri Azərbaycandakı Fransız İnstitutunda təşkil olunmuş fransız dili kursları barədə məlumatlandırıblar. Bütün yaş və səviyyələr üçün təşkil olunmuş bu kurslar, başlanğıc, orta və irəli səviyyələrdə olanlar üçün nəzərdə tutulub. Burada hər üç səviyyə üçün sessiya keçirilir. Fransada ali təhsil almaq üçün xarici tələbələrin ilk növbədə fransız dili bilmələri vacibdir. Bunun üçün Azərbaycanda Fransız İnstitutunda hər il fransız dilindən imtahanlar keçirilir.

# Hüquq təhsilinin yeni inkişaf mərhələsi



Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyevin rəhbərliyi ilə bir qrup professor-müəllim heyəti ABŞ Dövlət Departamentinin dəvəti ilə ABŞ-da səfərdə olub. Səfərin əsas məqsədi hüquq ixtisasında mühüm yer tutan kliniki təcrübənin və BDU-da açılması nəzərdə tutulan "Enerji hüququ. Dəniz hüququ" üzrə magistratura pilləsinin daha əlverişli istiqamətdə inkişafı ilə bağlı təcrübənin öyrənilməsi olub. Səfər zamanı amerikalı mütəxəssislərlə görüşlər keçirilib və fikir mübadiləsi aparılıb. Bu barədə daha ətraflı məlumat almaq məqsədilə professor Əmir Əliyevlə əlaqə saxladıq.

Məlum oldu ki, səfər Nyu Orleans şəhərində yerləşən, dəniz və enerji hüququ sahəsində mühüm yer tutan və Amerika Universitetlər Assosiasiyasının fəal üzvü olan Tuleyn Universitetinin hüquq fakültəsi ilə tanışlıqla başlayıb. Adıçəkilən universitetin hüquq fakültəsinin dekanı David Meyerin açılış nitqindən məlum olub ki, Tuleyn Universitetinin əsası 1834-cü ildə qoyulub və onun məzunları sırasında tanınmış şəxslər olub. Universitetin professorları nümayəndə heyəti qarşısında müxtəlif sahələri əhatə edən məruzələrlə çıxış ediblər. Mühazirələr zamanı bir sıra kurslar üzrə tədris proqramlarının BDU-nun hüquq fakültəsinin tədris yükündə tətbiq edilməsi imkanları müzakirə edilib.

Nümayəndə heyəti həmçinin Tuleyn Universitetinin hüquq fakültəsinin nəzdində fəaliyyət göstərən Hüquq klinikasının fəaliyyəti ilə yaxından tanış olmaq imkanı əldə edib. Mülki qanunvericilik, Ailə zorakılığı və Cinayət klinikalarının rəhbərlərinin bu görüşdə səslənən çıxışlarında əsasən kliniki təcrübənin tədrisdə yeri və onun gələcək mütəxəssislərin yetişdirilməsində rolu müzakirə edilib. Hüquq klinikasında çalışan tələbələrin təcrübəsinin öyrənilməsi məqsədi ilə qonaqlar Orlean Rayon Cinayət Məhkəməsini də ziyarət ediblər. Burada təcrübə keçən tələbələrin çıxışları dinlənilib və görüşün sonunda qısa fikir mübadiləsi aparılıb.

Eyni zamanda Tuleyn Universitetində görüşlərin yekunu kimi adıçəkilən universitetlə Bakı Dövlət Universiteti arasında əməkdaşlıq memorandumunun imzalanması istiqamətində bir sıra əhəmiyyətli müzakirələr aparılıb.

Növbəti görüş Luizianna ştatının Şərq rayonu üzrə Dairə Məhkəməsində baş tutub. Cinayət işləri üzrə hakim Helen Beriganın da iştirak etdiyi görüşdə klinikada çalışan universitet tələbələrini işə cəlb etmə mexanizmlərindən və bunun faydasından bəhs edilib.

Amerika Vəkillər Assosiasiyasının üzvü olan "Jons Volker" hüquq firmasının ofisində keçirilən görüşdə məqsəd hüquq şirkətinin fəaliyyəti ilə yaxından tanışlıq olub və şirkət hüquq fakültəsinin məzunları arasından seçim aparma qaydalarını təqdim edib. Geniş təcrübəyə malik vəkillər qonaqlar qarşısında çıxış edib və verilən sualları cavablandırıblar. Məlumat üçün bildirək ki, ABŞ-da universitetlərin hüquq fakültələri Amerika Vəkillər Assosiasiyasının akkreditasiyasından keçir.

BDU nümayəndə heyətinin növbəti görüşləri Vaşinqton şəhərində baş tutub. İlk növbədə, qonaqlar Amerikan Universitetinin Vaşinqton Hüquq Kollecinin Klinik Proqramlar üzrə direktoru, professor Brenda Smitlə görüşüblər. Daha sonra Vəkillik praktikası kursu üzrə rəhbər, professor Elizabet Boalsın mühazirəsi dinlənilib və müvafiq fikir mübadiləsi aparılıb. Qeyd etmək lazımdır ki, Vaşinqton Hüquq Kolleci 1896-cı ildən fəaliyyət göstərir və AVA akkreditasiyasından keçmiş təhsil ocağıdır. Hal-hazırda kollecdə 1200 nəfər müxtəlif dərəcələr üzrə təhsil almaqdadır. Onu da əlavə edək ki, Vaşinqton Hüquq Kolleci nəzdində 10 sahə üzrə Hüquq klinikası fəaliyyət göstərir.

Təcrübənin qiymətləndirilməsi məqsədilə Kolumbiya dairəsinin Ali Məhkəməsinə də səfər edilib və müxtəlif xarakterli cinayət işləri üzrə proseslər izlənilib. Hakim Rassel Cananla keçirilən görüşdə klinikada çalışan tələbələrin əməyindən məhkəmədə faydalanma üsulları müzakirə edilib.

Aztəminatlı əhalinin müdafiəsində mühüm yer tutan Federal İctimai Müdafiəçi İnstitutun fəaliyyətinin öyrənilməsi məqsədilə qonaqlar Virciniyanın Şərq Rayonu üzrə müvafiq qurumun fəaliyyəti ilə tanış olub, təcrübə keçən tələbələrin əməyindən istifadə ilə bağlı geniş fikir mübadiləsi aparıblar. Adıçəkilən qurum üzrə baş federal müdafiəçi Mixail Naxmanof qonaqlar qarşısında geniş nitqlə çıxış edib və suallar ətrafında müzakirələr davam edib.

Görüşlər zamanı təcrübəli professor-müəllim heyəti öz ABŞ-lı həmkarlarına Heydər Əliyev Fondunun təqdim etdiyi və Azərbaycanın mədəniyyəti, incəsənəti və tarixini əks etdirən hədiyyələri, Qarabağla bağlı həqiqəti üzə çıxaracaq məlumatlar, o cümlədən BDU-nun hüquq fakültəsinin əsas məlumat bukletlərini təqdim ediblər.

Qeyd etmək lazımdır ki, bu uğurlu səfər Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamının (2.20 bəndi) həyata keçirilməsində öz töhfəsini verəcək. Belə ki, Milli Fəaliyyət Planında ali təhsil müəssisələri nəzdində fəaliyyət göstərən hüquq klinikalarının fəaliyyətinin dəstəklənməsi nəzərdə tutulur, bu isə bu cür səfərlərin nə qədər faydalı olduğuna dəlalət edir. Odur ki, Bakı Dövlət Universiteti nəzdində 10 ildən artıq müddət ərzində mövcud olan Hüquq klinikasının fəaliyyətinin genişlənməsinə böyük ehtiyac duyulur. Hüquq sahəsi üzrə təhsil alan tələbələrin geniş təcrübəyə malik olan vəkillərin rəhbərliyi altında kliniki təcrübədən faydalanmaları onların əməyindən gələcəkdə daha əlverişli istifadəni təmin edir. Bu fikrin dəstəklənməsində Azərbaycan Respublikasının müvafiq qurumları tələbələrin öz imkanlarından istifadəsi üçün şərait yaratmalı və onlara dəstək olmalıdırlar.

Bundan əlavə, səfər zamanı əldə olmuş məlumat və biliklər ölkəmiz üçün vacib sahələrdən olan dəniz və enerji hüququnun inkişafına təkan verəcək və bu sahələr üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına zəmin yaradacaq. Qeyd etmək lazımdır ki, hüquq sferasında yeni sahələrin açılması zamanın tələbidir. Belə ki, Avropanın enerji təhlükəsizliyində respublikamız mühüm yer tutur və Xəzər dənizində aparılan işlər və həyata keçirilən daşımalardan daha da əlverişli faydalanmanı bu sahələrdə dövlətimizi təmsil edə biləcək yüksək səviyyəli mütəxəssislərsiz təsəvvür etmək mümkün deyil. Bütün bunlar hüquq təhsilində yeni inkişaf mərhələsinin açılmasını qaçılmaz edir.

**Anzulə Əmirova**

# "Universitet tarixi fotoların dili ilə"

***"Bakı Universiteti" qəzeti yeni layihəsini təqdim edir. "Universitet tarixi şəkillərin dili ilə" adlı rubrikada Universitetin professor-müəllim heyətinin maraqlı anlarını əks etdirən fotoşəkilləri təqdim edirik. Həmçinin bu, hansısa əməkdaşımız haqqında özəl foto da ola bilər.***

***"Universitet tarixi şəkillərin dili ilə" rubrikasının budəfəki təqdimatı Tarix fakültəsinin əməkdaşlarının vaxtilə çəkdirdiyi şəkillər əsasında hazırlanıb.***



***1979-cu ildə Azərbaycan Dövlət Universitetinin (BDU) 60 illik yubileyi münasibətilə...***

***Soldan sağa:*** baş müəllim Vaqif Nəbiyev, prof. Zakir Şıxlı, kabinə müdiri Naciyə Vəliyeva,b/m. Lütfiq Qafarov, b/m. Əhəd Şəmsizadə, dos.Almaz İbrahimova, b/m.Çimnaz Qafarova, professorlar Yusif Yusiov, Mahal Məmmədov, dos.Sabir Xəlilov, professorlar. Seyfəddin Qəndilov, Əjdər Alnağıyev.

***Ikinci sıra soldan sağa:*** prof Malik Rəhimxanov, dos. Sultan Sultanov, prof. İsmayıl Musayev, dos. Rauf Həsənov, b/m. Əminə Şirinova, dosentlər- İsgəndər Quliyev, Vladimir Sidyaykin, Yaqub Vəliyev, Azad Rzayev, b/m. Nadejda Güləhmədova, prof. Petros Mosesov.



1980-ci illərdə Sov. İKP tarixi kafedrasınıda xatirə şəkil

***Birinci sıra soldan sağa:*** b/l. Rəna Məlikova, dos. Tamam xanım, kabinə müdiri Naciyə Vəliyeva, dos. Tamilla Babayeva, b/m Nadejda Güləhmədova, dos. Xavər Abbasova, b/m Əminə Şirinova, lab. İnna Əliyeva,

***İkinci sıra sağdan sola*** prof. İbrahim Zeynalov, dos. Vladimir Sidyaykin, lab.Mürsəl Əliyev, dos. Emil Hacınskiy, dos. İsgəndər Quliyev, professorlar İsmayıl Musayev, Yusif Yusifov, Səfiyar Musayev, Ağalar Abbasbəyli, dos. Hüseyn Orucov, b/m. Vaqif Nəbiyev, dos. Yaqub Vəliyev



1970-ci illərin ikinci yarısı Sov. İKP tarixi kafedrasının iclasında

***Soldan sağa:*** professorlar- Səfiyar Musayev, Əcdər Annağıyev, Yusif Yusifov, Petros Mosesov, Zakir Şıxlı, b/m. Lütfiq Qafarov, prof. Mahal Məmmədov, dos. Hüseyn Orucov, prof.-Xasay Əliyev, dosentlər Sabir Xəlilov, Şirin Məmmədov, lab-.Olya xanım,

***ikinci sıra sağdan sola:*** b.m. Vaqif Nəbiyev, dos.Rauf Həsənov, b.lab. Fəridə Ağamirova, dos. Xavər Abbasova, dos. Tamilla Babayeva, kabinə müdiri Naciya Vəliyeva



1980-ci illərdə Siyasi tarix kafedrasının iclasında...

***Birinci sıra soldan sağa:*** Professorlar-İbrahim Zeynalov, Asya Hacıyeva, Ağalar Abbasbəyli, dos.Yaqub Nəbiyev, prof. Səfiyar Musayev, kabinə müdiri Naciya Vəliyeva, dosentlər- Hüseyn Orucov, Tamilla Babayeva, b/m. Əminə Şirinova, prof. Hicran Hüseynova,

***ikinci sıra sağdan sola:*** professor İsmayıl Musayev, aspirant, dissertant, baş lab. Rəna Məlikova, ikinci sıra soldan sağa dos. Azad Rzayev, b/m Vaqif Nəbiyev, dos. Vladimir Sidyaykin, (ayaq üstə) Emil Hacınski

**Təqdim etdi: Solmaz Babaşova**

# Coğrafiya elminin bənzərsiz korifeyi



Müseyib müəllim bu gün haqq dünyasındadır. 85 illik yubileyinə ... il (ay) qalmış, bəlkə də, haqqı bizə bir də andırmaq, insanlığın hələ haqq deyilən yolun ilk addımlarında olduğunu, bu yolun şərəf yolu, ləyaqət yolu, özünün boyuna-buxununa biçilmiş əzəmət yolu, işin üstünə getdiyi, bu gedişdən işin də çəkindiyi cəsarət yolu, görülmüş işdən gələn təravət yolu, xüsusilə də elmdə qazanılan uğurlara qovuşduran rəşadət yolu, sözlərindən, gözlərindən oxunan, əməllərindən, hərəkətlərindən qanılan kişilik və sədaqət yolu olduğunu bir daha xatırlatmaq üçün 85 il gəldiyi yolun sonucunda haqq dünyasına qovuşan Müseyib müəllimi "Bir az da yaşasaydı, ..." sızıltısı ilə anır, ayrılığına yanır, keçdiyi yolun hələ neçə-neçə nəslə məktəb olacağına inanırıq.

Müseyib müəllim 1927-ci ilin baharında Azərbaycanın ağır ellərindən olan Şəmşəddin mahalının Qaraxanlı kəndində, elin-obanın seçilib-sayılan ocaqlarından birində - Qaraxanlı Hacı İsaxanın nəvəsi, kəndxuda Müseyibin oğlu Ağababa İsaxanovun yurdunda anadan olmuşdur. Baharda dünyaya gələn balaca Müseyibin elə ömrünün dördüncü baharında başı üstündən "xalq düşməninin oğlu" adlı qara yellər əsmiş, atası 1931-ci ildə "xalq düşməni" kimi həbs edilmiş və Qazax türməsində güllələnmişdir.

Müseyibi dayısı, Tovuzun adlı-sanlı ağsaqqallarından olan Novruz Vəli oğlu Əliyev böyütmüş, ona təhsil vermişdir. Balaca Müseyibin şagirdlik həyatı Xatınlı kəndindəki ibtidai, Tiflis şəhərindəki 72 №-li və A.S.Puşkin adına Tovuz şəhər orta məktəbləri ilə bağlıdır. Tələbə olmaq arzusu isə onu BDU-nun geologiya-coğrafiya fakültəsinə gətirmiş, 1949-cu ildə coğrafiya şöbəsini uğurla başa vuraraq, universitetin aspiranturasına daxil olmuşdur. Savadlı, gözəgəlimli aspirant uşaqlıq illərində yaşadığı sarsıntını təkrar yaşamış, burada da sözəgəlimli olmuşdur. 1951-ci ildə universitetin elmi işlər üzrə prorektoru, millətçi və daşnak Anuşavan Arzumanyanın təqdimatına əsasən "xalq düşməninin oğlu" kimi aspiranturadan xaric edilmişdir. Sonsuz əzab-əziyyətlərə polad kimi sinə gərən Müseyib müəllim yenə də qamətini düzəltmiş və 1954-cü ildə fakültənin Elmi Şurasında namizədlik dissertasiyası müdafiə etmişdir. Növbəti elmi uğur da özünü çox gözlətdirmədi. Müseyib müəllim artıq 1963-cü ildə tələbələrinin qarşısında elmlər doktoru kimi çıxış edirdi.

M.Müseyibov SSRİ Universitetlərində Ali Coğrafiya Təhsil Elmi-Metodik Şurasının üzvü, müstəqil Azərbaycanın Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının coğrafiya bölməsinin sədri, Ali Attestasiya Komissiyasının Yer elmləri bölməsi ekspert şurasının üzvü, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası yanında daimi fəaliyyət göstərən coğrafiya seminarının rəhbəri, coğrafiya fakültəsinin dekanı kimi vəzifələrin öhdəsindən ləyaqətlə gəlmişdir.

O, beynəlxalq elmi tədbirlərdə də Azərbaycanı şərəflə təmsil etmiş, beynəlxalq konqreslərdə, simpoziumlarda maraqlı mövzularla çıxışlar etmişdir. Cənubi Qafqazda paleocoğrafi, paleomorfoloci, paleolandşaft, morfostruktur, neotektonik problematikalar üzrə tanınmış tədqiqatçılardan biri idi. Onun elmi diskursları Azərbaycan və rus dillərində nəşr olunmuş kitablarda öz əksini tapmışdır.

Görkəmli alim bir sıra xəritələrin də tərtibçisi və həmmüəllifi olmuşdur. O, ümumtəhsil məktəbləri üçün coğrafiya fənnindən milli proqram və dərsliklərin yaradılması işinə də rəhbərlik etmişdir.

Müseyib müəllim həm də böyük vətənpərvər, davranışı, geyimi və alicənablığı ilə əsl aristokrat bir ziyalı idi. Mühazirələrindən doymazdıq...

1967-ci ilin iyun-iyul ayları idi. Çexoslovakiyaya təcrübə mübadiləsinə gedirdik. Müseyib müəllim qrupumuza rəhbər təyin olunmuşdu. Biz qatarla Moskvaya yola düşdük, oradan Ukraynanın Çop dəmiryol stansiyasına çatıb dövlət sərhədini keçdik. Yol boyu Müseyib müəllim gördüyümüz maraqlı və xarakterik relyef formaları, unikal landşaftlar barədə bizə maraqlı məlumat verirdi.

Ölkənin iri sənaye şəhərləri, gözəl təbiətə malik əraziləri bizdə sonsuz maraq doğururdu. Praqa, Olomous, Karlovı-Varı, Brno və başqa şəhərləri gəzdikcə Müseyib müəllim həvəslə həmin şəhərlər haqqında əlavə məlumatlar verirdi. Avtobusumuz Maraviya massivinə çatarkən Müseyib müəllim məndən (o, bəzən avtobusun içində gəzişərdi) soruşdu ki, Tahar (həm tələbə vaxtı, həm də onunla eyni kafedrada işlədiyim zaman təkcə Müseyib müəllim məni belə çağırırdı), heç ömründə yerin altında qayıqla gəzmisən? Mən də cavabında dedim ki, Müseyib müəllim, Göyçə gölündə az-çox qayıqla gəzmişəm, amma...

- Hə, bu gün bunu da görərsən, - deyən Müseyib müəllim özünəməxsus qürurla söhbətinə davam etdi. Doğrudan da, təəccübümüzü gizlədə bilmirdik.

Dünyagörüşümüzün artmasında, təbiətdə baş verən maraqlı hadisələrin və proseslərin öyrənilməsində Müseyib müəllimin böyük əməyi olmuşdur. Keçmiş SSRİ-nin Avropa hissəsini ətraflı öyrənmək məqsədilə gəmi ilə Volqa boyu gəzintiyə çıxdıq. Maraqlı anları Müseyib müəllim çox səbirlə, böyük təmkinlə bizə başa salırdı. İzah edirdi ki, Volqa və Don çayları arasındakı yüksəkliyi bu kanal çəkilənə qədər gəmilər çox çətinliklə aşıb-keçməli olurdular. Gördüyümüz bu şlüzlər vasitəsilə gəmilər həmin yüksəkliyə qalxır və eyni qayda ilə enirlər. Bu deyilənləri kitabdan, dərslikdən oxumaq hara, onları öz gözümüzlə görməyimiz hara?!

Ural dağlarının şimalında yerləşən Kunqur mağarasında biz yenidən ecazkar bir aləmə düşdük. Mağarada temperatur çox aşağı idi. Mağaraya girmək üçün çəkmə, isti paltar geyməli olduq. Burada da qeyri-adi həyatla rastlaşdıq. Professor gülümsəyərək: "Tahar, bu mağara Maraviyadakına oxşasa da, burada qayıqla gəzmək olmayacaq" deməsi və bunun səbəbini bizə ətraflı izah etməsi xatirimizə əbədi həkk olundu.

Perm şəhərindən qərbə doğru marşrutumuzu davam etdirib, Moskvada, Volqaqradda, Leninqradda (indiki Sankt-Peterburqda), sonra Ukrayna və Belarusda olduq. Həmin ölkələrin böyük şəhərlərini gəzib xoş təəssüratlarla Azərbaycana qayıtdıq.

Mənalı həyat yolu keçmiş böyük insan, qayğıkeş alim, müdrik ağsaqqal, xalqının vətənpərvər oğlu professor Müseyib Müseyibov qəlbimizdə daim yaşayacaqdır. Nə qədər ki Azərbaycan xalqı var, onun coğrafiya elmi var, bu elmi yaşadanlar var, deməli, Müseyib müəllim də yaşayır, o, bizim aramızda, yanımızdadır.

✍ **Tahir İbrahimov,**
**Fiziki-coğrafiya kafedrasının dosenti**

# Şərəfli ömrün səhifələri

***2012-ci il may ayının 5-də coğrafiya elmləri doktoru, əməkdar elm xadimi, Prezident təqaüdçüsü, professor M.A.Müseyibovun (1927-2011) anadan olmasının 85 ili tamam olur.***

M.A.Müseyibovun elmi yaradıcılığı çoxşaxəli, geniş diapazonu ilə fərqlənir. Azərbaycan coğrafiya elminin ağsaqqalı akademik B.Ə.Budaqov prof. M.A.Müseyibovu respublikamızın milli landşaftşünaslıq, geomorfologiya, paleocoğrafiya elm sahələrinin banilərindən biri kimi qiymətləndirmişdir. Onun tədqiqatlarında coğrafiyanın müasir qlobal ekoloji problemləri, ətraf mühitin transformasiyası, iqlim dəyişmələri xüsusi yer tutur. Rusiya coğrafiyaçıları onu "Azərbaycan coğrafiya elminin tacı" adlandırırdı.

Prof. M.A.Müseyibovun elmi əsərləri içərisində "Qafqazın regional geomorfologiyası", "Orta Kür çökəkliyinin geomorfologiyası", "Təbiətin təzadları" "Azərbaycanın landşaftları", "Azərbaycanın geomorfologiyası" xüsusi yer tutur. Onun landşaftşünaslıq, geomorfologiya, neotektonik hərəkətlər sahəsində əldə etdiyi elmi nəticələr dəfələrlə SSRİ EA-da və AMEA-da mühüm elmi işlər kimi qəbul edilmişdir.

M.A.Müseyibovun elmi irsi dünya coğrafiyaçıları tərəfindən yüksək qiymətləndirilmişdir. Sovet dövrünün məşhur alimlərindən akademik Y.Y.Milanovski "Qafqazın neotektonikası", MDU-nun kafedra müdiri, prof. N.A.Qvozdetski "Zaqafqaziyanın fiziki coğrafiyası", akademik İ.V.Bondırov "Geomorfologiyada yeni baxışlar", akademik İ.P.Gerasimov "Dağlıq ərazilərdə konstruktiv coğrafiyanın müasir problemləri" əsərlərində M.A.Müseyibova istinadlar etmiş, onun Azərbaycanda apardığı tədqiqatları yüksək qiymətləndirmişlər.

M.A.Müseyibov MDU-nun coğrafiya fakültəsinin dekanı A.M.Ryabçikovun təkidi ilə uzun illər MDU-nun Coğrafiya üzrə Müdafiə Şurasının üzvü olmuşdur. Onun opponentliyi ilə 50-dən artıq elmlər doktoru və elmlər namizədi müdafiə etmişdir.

Zaqafqaziya və keçmiş SSRİ coğrafiyaçıları arasında onun nüfuzu böyük idi. SSRİ ET Coğrafiya İnstitutunun direktoru akademik İ.P.Gerasimov M.A.Müseyibovu SSRİ coğrafiya elminin ən parlaq nümayəndəsi kimi qiymətləndirmişdir.

M.A.Müseyibov uzaqgörən, yeniliyə yüksək qiymət verən alim idi. Onun XX əsrin 70-ci illərində morfostrukturlar haqqındakı yazıları sonralar dərin elmi tədqiqatlara çevrilmişdir. "Zaqafqaziya" sözünün "Cənubi Qafqaz"la əvəz edilməsində M.A.Müseyibovun inadlı təkliflərinin rolu böyük olmuşdur.

Prof. M.A.Müseyibov Azərbaycan Respulikasının ali və orta ümumtəhsil məktəbləri üçün tədris planlarının, proqramların, dərslik və dərs vəsaitlərinin müəllifi və redaktoru kimi də əvəzsiz xidmət göstərmişdir. Onun bilavasitə təklifi və nüfuzu sayəsində 1993-cü ildə respublikamızın orta ümumtəhsil məktəblərinin X sinfinə "Yerşünaslıq" və XI sinfinə "Türk dünyası coğrafiyası" fənləri daxil edilmişdir.

1992-ci ildən ömrünün sonuna qədər M.A.Müseyibov Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının Coğrafiya bölməsinə sədrlik etmişdir. M.A.-Müseyibov bütün siniflər üçün tərtib olunmuş proqramların, 20 ilə yaxın dövrdə nəşr edilən bütün orta məktəb dərsliklərinin redaktoru olmuşdur.

Onun respublikamızın ali məktəblərinin coğrafiya fakültələri üçün yazdığı "Azərbaycan Respublikasının fiziki coğrafiyası" dərsliyi yüksək elmi səviyyəsi, dil və yazı üslubu, orijinallığı ilə fərqlənir. İlk dəfə olaraq Azərbaycanın geoloji inkişafı, relyefin əmələ gəlməsi, neotektonik hərəkətlər və s. qlobal tektonika, litosfer tavaları nəzəriyyəsi ilə əsaslandırılmışdır.

M.A.Müseyibovun rəhbərliyi və müəllifliyi ilə 1975-ci ildə tərtib olunmuş Azərbaycan Respublikasının 1:600000 miqyaslı landşaft xəritəsi bu gün də analoqu olmayan elmi mənbə və əvəzsiz tədris vəsaitidir. Bu xəritə respublikanın real landşaft strukturunu əks etdirir. Məhz onun təhlili əsasında B.Ə.Budaqov və M.A.Müseyibov Azərbaycan Respublikasının mükəmməl fiziki-coğrafi rayonlaşma sxemini hazırlamışlar.



Zaqafqaziyanın landşaft xəritəsinin Azərbaycan hissəsi M.A.Müseyibovun rəhbərliyi və müəllifliyi ilə hazırlanan 1:600000 miqyaslı Azərbaycanın landşaft xəritəsi əsasında tərtib edilişdir.

M.A.Müseyibovun rəhbərliyi və yaxından iştirakı ilə çöl tədqiqatları əsasında Mil, Qarabağ, Qanıx-Əyriçay, Arazboyu düzənliklər, Lənkəran ovalığı, Naxçıvan MR və s. regionlar üçün böyük miqyaslı, təsərrüfat məqsədli landşaft xəritələri hazırlanmışdır.

Geomorfoloji xəritələrin hazırlanmasında M.A.Müseyibovun müstəsna əməyi olmuşdur. Həmin xəritələr Qafqazın və SSRİ-nin geomorfoloji xəritələrinin tərtib edilməsində istifadə edilmişdir. 1994-cü ildə nəşr olunmuş Azərbaycan Respublikasının 1:600000 miqyaslı geomorfoloji xəritəsinin müəlliflərindən biri də prof. M.A.Müseyibovdur. Bu xəritənin bu gün çox böyük elmi, praktiki əhəmiyyəti var.

Azərbaycanın neotektonik, paleocoğrafi xəritələrinin hazırlanmasında da M.A.Müseyibovun böyük əməyi olmuşdur. Azərbaycanın 1:600000 miqyaslı neotektonik xəritəsinin Kür dağarası depressiya vilayəti M.A.Müseyibovun həmmüəllifliyi ilə tərtib edilmişdir. Qeyd edilən xəritədən SSRİ-nin neotektonik xəritəsinin tərtib edilməsində də istifadə edilmişdir.

M.A.Müseyibov VI, VII və VIII siniflər üçün hazırlanan atlasların və orta məktəb xəritələrinin əsas müəlliflərindən biridir. Azərbaycanın 1963, 1979-cu illərdə nəşr olunmuş atlaslarında, 2010 və 2011-ci illərdə nəşr edilmiş Azərbaycan Respublikasının ekoloji atlaslarında M.A.Müseyibovun Azərbaycanın paleocoğrafi, geomorfoloji, neotektonik xəritələri öz yerini tapmışdır.

Onun həmmüəllifi olduğu "Ümumi geomorfologiya", "Qitələrin fiziki coğrafiyası" dərslikləri respublikamızın ali məktəblərinin coğrafiya fakültələrində tədris edilir.

M.A.Müseyibov 1994-cü ildən son mənzilə köçənə qədər Azərbaycan Respublikası Prezidenti yanında TQDK-nın coğrafiya seminarının rəhbəri olmuşdur. Bu dövrdə coğrafiya üzrə ali məktəblərə qəbul proqramlarının, dərs vəsaitlərinin, test toplularının hazırlanmasına rəhbərlik etmişdir. Coğrafiyadan VI-XI siniflər üçün hazırlanmış bütün test kitablarında M.A.Müseyibov həm müəllif, həm də redaktor kimi iştirak etmişdir.

M.A.Müseyibovun şərəfli ömrü müasir gənclərə örnək və nümunədir. Onun zəngin irsi, yaradıcılığı, əsərləri coğrafiya üzrə təhsil alan, elmi-tədqiqat işləri ilə məşğul olan bütün tədqiqatçılara daima lazım olan zəngin xəzinədir. Bakı Dövlət Universiteti, coğrafiya fakültəsi, M.A.-Müseyibov irsinə hörmət və məhəbbət bəsləyən, onun yetirmələri olan respublika coğrafiyaçıları öz müəllimlərinin şərəfli adını daima uca tutacaq, böyük şəxsiyyətin müqəddəs ruhu qarşısında baş əyəcəklər.

**Allah rəhmət eləsin!**

✍ **Coğrafiya fakültəsinin dekanı,**
**prof. Fərda İmanov,**

**Fiziki coğrafiya kafedrasının müdiri,**
**dos. Yaqub Qəribov**

## Beynəlxalq əlaqələr

# Bakı Dövlət və Qafqaz Universitetlərinin təşəbbüsü ilə toplantı keçirilib

***Bakı Dövlət və Qafqaz Universitetlərinin təşəbbüsü ilə aprelin 12-də Qafqaz Universitetində Azərbaycanın qabaqcıl ali təhsil müəssisələrinin Beynəlxalq Əlaqələr üzrə heyətlərinin toplantısı keçirilib.***

Toplantıda Təhsil Nazirliyi Xarici Əlaqələr, İnformasiya və koordinasiya şöbəsinin müdiri Tamilla Əliyeva, Azərbaycan Tibb Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Turizm İnstitutu, Odlar Yurdu Universiteti, Xəzər Universiteti və Azərbaycan Universitetlərindən nümayəndə heyəti iştirak edib.

Toplantı zamanı Azərbaycanın ali təhsil müəssisələrinin beynəlxalq təhsil arenasına inteqrasiyası, bu prosesdə universitetlərin üzləşdikləri imkanlar və yeniliklər, təhsil müəssisələrinin beynəlxalq təhsil məkanında atdığı bir sıra uğurlu addımlar haqqında fikir mübadiləsi aparılıb. Açılışı Qafqaz Universitetinin rektoru professor Ahmet Saniç edib. O, bundan sonra daha da yüksək nəticələr göstərmək üçün universitetlərin birlikdə çalışmalarında fayda olduğunu vurğulayıb.

***Növbəti görüşün mayın 1-də Bakı Dövlət Universitetində keçirilməsi nəzərdə tutulub.***

# SUFOLK universitetinin nümayəndə heyəti BDU-da

**17 apreldə İngiltərənin SUFOLK universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.** Görüşdə SUFOLK universitetinin İncəsənət və humanitar elmlər məktəbinin rəhbəri Chrissie Harrington və Beynəlxalq Əlaqələr şöbəsinin mütəxəssisi Bela Məmmədova, BDU-dan isə Beynəlxalq Əlaqələr və Əməkdaşlıq üzrə prorektor Şəlalə Məmmədova, Beynəlxalq Proqramlar şöbəsinin müdiri Təranə Mahmudova, Beynəlxalq Proqramlar şöbəsinin baş mütəxəssisi Elmira İsmayılova və Lalə Kərimova iştirak ediblər. Universitetlər arasında əməkdaşlıq, tələbə-müəllim mübadiləsi, birgə layihələrin hazırlanması və s. məsələlər müzakirə olunub. Danışıqlar zamanı o



da məlum olub ki, İncəsənət və humanitar elmlər məktəbinin rəhbəri Chrissie Harrington oktyabr ayında BDU-da mühazirə ilə çıxış edəcək.

✍ **Elmira İsmayılova,**
**Beynəlxalq Proqramlar şöbəsinin mütəxəssisi**

Özünü fəth etməyi bacar! Bakı Universiteti

## Fərda İmanov - 55

# Bizim görkəmli alim



Hər bir alimin dəyəri onun elmə verdiyi töhfələrlə ölçülür. Elmi axtarışlara həsr olunmuş illər heç zaman hədər getmir. Təkcə respublikamızda deyil, onun hüdudlarından kənarlarda da böyük nüfuz qazanan coğrafiyaşünas alim Fərda Əli oğlu İmanov da belə zəhmətkeş alimlərdəndir.

O, 1974-cü ildə 19 №-li Bakı şəhər orta məktəbini fərqlənmə diplomu ilə, 1979-cu ildə Leninqrad Hidrometeorologiya İnstitutunu hidrologiya ixtisası üzrə bitirib. Təhsilini başa vurduqdan sonra AMEA-nın Coğrafiya İnstitutuna təyinat alıb. 1982-ci ildə müsabiqə yolu ilə Leninqrad Hidrometeorologiya İnstitutunun əyani aspirantura şöbəsinə daxil olub. 1984-cü ildə namizədlik dissertasiyasını müdafiə edib.

Göstərilən sahədə elmlər namizədi olan F.Ə.İmanov Leninqrad Hidrometeorologiya İnstitutunun Qurunun hidrologiyası kafedrasında əvvəl baş elmi işçi, 1990-1992-ci illərdə isə müəllim vəzifəsində çalışıb. Bu dövrdə Rusiya Federasiyasının müxtəlif regionlarında, o cümlədən Tümen, Pskov, Çita, Leninqrad vilayətlərində ekspedisiyalarda fəal iştirak edib. 1997-ci ildə Tbilisi Dövlət Universiteti nəzdində fəaliyyət göstərən İxtisaslaşmış Elmi Şurada doktorluq dissertasiyasını müdafiə edib. 1992-2003-cü illərdə Bakı Dövlət Universitetinin Hidrometeorologiya kafedrasında baş müəllim, dosent, 2003-cü ildə professor, 2004-cü ildən həmin kafedranın müdiri, 2011-ci ildən isə coğrafiya fakültəsinin dekanı vəzifəsinə təyin edilib.

Onun doktorluq dissertasiyası müasir elmi-texniki tərəqqinin nailiyyətləri və texnologiyalar ilə bağlı olduğundan elmi-praktik nailiyyətləri nəinki bizim ölkəmizdə, hətta bir çox xarıcı ölkələrdə də elmi-təcrübi istehsalat sahələrində tətbiq olunur.

Professor F.Ə.İmanov bu gün geniş sahəli elmi fəaliyyətlə məşğuldur. Onun əsas elmi-tədqiqat sahəsinə qurunun hidrologiyasının nəzəri-praktik məsələləri, hidroloji hesablama və statistik üsullar, çayların minimal axım rejimlərinin tədqiqi, çay hövzələrinin idarə olunması, transsərhəd çayların su rejimi və deqradasiyasının azaldılması və s. problem məsələlər daxildir. Onun elmi araşdırmalarının nəticələri Azərbaycan Fövqəladə Hallar Nazirliyində çay məcraları və su bəndləri, eləcə də sahil bərkitmə işlərinin aparılması, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, "Azərsu" və s. baxımdan faydalı ola bilər.

Tanınmış alim 160-dan çox elmi əsərin, o cümlədən universitet tələbələri üçün "Hidrometriya", "Çay axımı", "Ümumi hidrologiya", "Hidroloji hesablamalar", "Tətbiqi hidrologiya", "Hidrometeorologiyada statistik üsullar" dərsliklərinin, orta məktəb şagirdləri üçün "Təbiətşünaslıq" dərsliyi, "Hidroloji terminlər lüğəti", "Beynəlxalq hidroloji lüğət", "Ekohidroloji terminlərin izahlı lüğəti", "Minimalnıy stok rek Maloqo Kavkaza", "Quraqlığın meteoroloji əsasları və hidroloji proseslər", "Klimatiçeskaya xarakteristika agroporta Qeydar Aliev" həmmüəllif monoqrafiyalarının, iki elmi-populyar kitabın, tədrisə dair çoxsaylı metodik göstəriş və proqramların, "Ekoloji atlasın" müəllifidir. Onun elmi əsərləri ölkəmizdə və xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap olunub.

F.Ə.İmanov çoxsaylı beynəlxalq və respublika miqyaslı elmi-praktik konfrans və simpoziumlarda iştirak etmiş və məruzələrlə çıxış edib.

Alim 2005-ci ildən YUNESKO-nun Beynəlxalq Hidroloji Proqram üzrə Azərbaycan Milli Komitəsinə sədrlik edir. O, 1999-cu ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Yer Elmləri üzrə Ekspert Şurasının üzvü, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının baş ekspertidir.

F.Ə.İmanov haqqında yazılan sətirləri nəzərdən keçirdikdən sonra onun necə görkəmli alim olduğu aydınlığı ilə görünür. Əlbəttə ki, onun yetişməsində valideynlərinin, müəllimlərinin böyük rolu olduğunu qeyd etməklə yanaşı nəzərə çatdırmaq lazımdır ki, eyni zamanda bu, Heydər Əliyevin uzaqgörən təhsil siyasətinin təntənəsidir. Belə ki, F.Ə.İmanov vaxtilə ulu öndərin SSRİ-nin məşhur universitetlərinə oxumağa göndərdiyi tələbələrdəndir.

Alimin əməyi universitet rəhbərliyi tərəfindən hər zaman yüksək qiymətləndirilib. 2009-cu ildə isə elm və təhsil sahəsində nailiyyətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib.

Bu il professor F.İmanovun 55 yaşı tamam oldu. O, elmi fəaliyyətinin ən məhsuldar dövrünü yaşayır. Ona bu münasibətlə uzun ömür, cansağlığı, xoşbəxtlik, ailəsində əmin-amanlıq arzulayırıq. İnanırıq ki, professor F.Ə.İmanov Azərbaycanda hidrologiya elminin çiçəklənməsi naminə öz səy və bacarığını daha da artıracaq, Yer elmləri sahəsində kadr hazırlığı işinə yeni tutduğu vəzifədə daha böyük töhfələr verəcəkdir.

**Məqsəd Qocamanov,**
**Geodeziya və kartoqrafiya kafedrasının müdiri,**

**Aytən Quliyeva,**
**Coğrafiya üzrə fəlsəfə doktoru**

# Beynəlxalq standartlara uyğun tədris proqramının təqdimat mərasimi keçirilib

***Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) "Cənubi Qafqazda Biomüxtəlifliyin Davamlı İdarəolunması Proqramı" (BDİP) çərçivəsində Ekologiya və Torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrasının yeni istifadəyə verilmiş laboratoriyasında magistr pilləsi üçün beynəlxalq standartlara uyğun tədris proqramının təqdimat mərasimi keçirilib.***





Təqdimat mərasimində Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, professor İradə Əliyeva, fakültənin dekanı, dosent Nazim Şəmilov, Bioekologiya kafedrasının müdiri, professor Nərminə Sadıqova, o cümlədən Almaniyanın Greifswald Universitetinin nümayəndələri iştirak ediblər. Bioekologiya kafedrası üçün hazırlanmış bu proqram kafedranın alimləri, başda kafedra müdiri, biologiya elmləri doktoru, professor Nərminə xanım Sadıqova olmaqla, Almaniyanın Greifswald Universitetinin mütəxəssisləri tərəfindən tərtib olunub. Mərasimdə çıxış edən Greifswald universitetinin nümayəndələri proqramla bağlı fikirlərini bölüşüb, onun əhəmiyyəti barədə danışıblar.

Qeyd edək ki, tədris proqramının hazırlanma mərhələsində Almaniyadan dəvət olunmuş mütəxəssislər Bakı Dövlət Universitetində, universitetin nümayəndə heyəti isə Almaniyada səfərdə olublar. Nümayəndə heyətimiz Greiswald Universitetinin prorektoru və beynəlxalq əlaqələr üzrə şöbənin rəhbəri ilə görüş keçirib, gələcəkdə universitetlər arasında qarşılıqlı tələbə mübadiləsinin aparılması məsələləri barədə ətraflı müzakirələr aparıblar.

# Alim beynəlxalq seminarda iştirak edib

Ekologiya və torpaqşünaslıq fakultəsinin Coğrafi ekologiya kafedrasının dosenti, kənd təsərrüfatı elmləri namizədi Allahverdi Dolxanov Dünya Bankının layihəsi üzrə Moskva vilayətinin Puşkino şəhərində keçirilmiş beynəlxalq elmi seminarda iştirak edib. 4-6 aprel tarixlərində keçirilmiş seminar meşə siyasətinə həsr olunub. Alim tədbirin müzakirələrində fəal iştirak edərək, fikir və mülahizələrini bildirib.

# "Bizim söz" qəzeti fəaliyyətini bərpa edib

Ölkənin nüfuzlu nəşrlərindən olan, ziyalılar, yaradıcı adamlar arasında populyarlığı ilə seçilən "Bizim söz" qəzeti yenidən nəşrə başlayıb. Qəzet bu sayından etibarən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-İnformasiya fakültəsinin nəzdindəki Tələbələrin Yaradıcılıq Klubunun təşkilati dəstəyi ilə nəşr ediləcək. Kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfovun tövsiyələri, fakültənin dekanı dosent Azad Qurbanovun bilavasitə dəstəyi ilə nəşrə başlayan qəzetin baş redaktoru Ələmdar Cabbarlı, məsləhətçisi Knyaz Aslan, redaktoru Nofəl Ədalətdir.

"Bizim söz" bütün tələbələri, gəncləri, yaradıcı insanları əməkdaşlığa dəvət edir. İstənilən mövzuda olan yazılar qəzetin elektron ünvanına (bizimsozqezeti@mail.ru) göndərilə bilər.

## Universitetdaxili "50+50" qrant müsabiqəsinin qalibi

# Amerikan nəsrinin görkəmli nümayəndəsi

***Amerika ədəbi-bədii fikri XIX əsrin sonu - XX əsrin əvvəllərində ziddiyyətli, son dərəcə dinamik Amerika gerçəkliyini təcəssüm etməklə özünəməxsus yaradıcılıq yolu ilə inamla irəliləmiş və Drayzerin, Andersonun, Vulfun, Fitseraldın, xüsusilə də Folknerin və Heminqueyin simasında Qərbi Avropa ədəbiyyatının nümayəndələri üçün örnək rolunu oynamağa*** başlamışdır.

U.K.Folkner Missisipi ştatında, Nyu Olbanidə doğulmuşdur. O, vətəndaş müharibəsinin iştirakçısı olmuş babası polkovnik Uilyam Katbert Folknerin adını daşıyırdı, ailədəki 4 oğlan uşağının ən böyüyü idi. Folknerin oxumağa hədsiz marağı olsa da, az çalışırdı və buna görə də onu təhsil aldığı universitetdən xaric etdilər, bir müddət babasının bankında hesabdar işləmək məcburiyyətində qaldı. 1918-ci ildə Folknerin sevgilisi Estella Oldham ərə gedəndə Folkner Kanadanın kral hərbi-hava qüvvələrinə daxil oldu.

Onun ilk bədii işi şeirlər idi. Folknerə çox güclü təsir edən Şervud Anderson olmuşdur. Andersonun aşağıdakı fikri Folknerə çox şey öyrətdi: "Sən, Folkner, Missisipidə kiçik bir kənddə doğulmusan. Orada gördüklərin sənə



ömrün boyu bəs edər".

U.Folkner 1939-1942 illərdə "Mən öləndə" (1930), "Müqəddəs" (1931), "Avqustda işıq" (1932), "Avessalom, Avessalom" (1936), "Məğlubedilməzlər" (1938), "Yabanı palmalar" (1939)", Kənd" (1940) əsərlərini yazır. Sonralar maddi çətinlik üzündən Folkner Hollivudda ssenarist kimi çalışır. 1949-cu ildə ədəbiyyatdakı xidmətlərinə görə Nobel mükafatına layiq görülən Folkner "Şəhər", "İqamətgah", "Pritça", "Balaca kəndlər", "Meyit murdarlayan" kimi gözəl əsərlər yaratmışdır.

U.Folknerin yaradıcılığı dünya ədəbiyyatşünaslığında təkcə Amerika milli ədəbi-bədii fikrinin və poetik ənənəsinin təkamülü baxımından deyil, həm də dünya ədəbi prosesinə, estetik fikrinə təsir göstərən beynəlmiləl amil kimi qiymətləndirilmişdir. Folknerin yaradıcılığı özlüyündə həm böyük estetik-bədii dəyəri, həm XX əsr Amerika və bir cox məqamda dünya ədəbiyyatının inkişaf meyillərini əks etdirən siqləti, həm də Azərbaycan nəsrindəki yeni meyillərə müəyyən tipoloji uyğunluğu və bir sira nasirlərin yaradıcılığına təsirləri ilə ciddi elmi maraq doğurur. U.-Folkner həyatın ona qədər hec kimin ağlına gəlməyən cəhətlərinə nəzər salmış, bəlkə də, bir cox yazıçıların öz xəyallarında təsəvvür etdiyi, amma heç birinin cürət etmədiyi bir axına atılmış, onu ram edərək, yüksək bir sənətkarlıqla bədii düzənə sala bilmişdir. U.-Folknerin yaşayıb-yaratdığı dövrdə bir çox ultramüasir və modernist təmayül və cərəyanlar mövcud idi. Folkner bunların ardınca gedib, insanı mübhəm və əbədi sirr içində saxlayan bir cığır da açа və yaxud daha cəlbedici modernist üsul və oyunlarla səciyyələnən əsərlər ortaya qoya bilərdi. Folkner isə var qüvvəsini bir nöqtəyə cəmləyərək, "lənətə gəlmiş" torpağın ədəbi tarixini və faciəsini yazmağa üstünlük verdi. Folkner bütün əsərləri ilə "insan qalib gələcək" həqiqətini bəyan etdi və bunun qarşısında başqa bir alternativin olmadığını sübut etdi. Folkner istənilən həqiqəti sadəcə təsdiq etmirdi, başqalarından fərqli olaraq, onu prosesdə göstərə bilirdi. Folkner bütün Amerika nəsrini qarşısıalınmaz şəkildə xoşbəxt sonluğa qaçmaqdan qurtardı. Bu, XX əsrin əvvəllərində amerikan ədəbiyyatında nəsil dəyişmi prosesini səciyyələndirən ən əsas xüsusiyyətlərdən biri idi.

U.Folkner öz dövründə dəbdə olan, bütövlükdə XX əsri sarımış olan ədəbi cərəyan və meyillərin güclu və amansız burulğanından kecərək, yazı texnikası və manerasından daha cox insana münasibətdə əvəzsiz kəşf etmişdir.

XX əsr amerikan nəsrinin ən görkəmli nümayəndələrindən biri kimi Folkner Azərbaycan oxucularına tanışdır və onun tərcümə olunan hər əsəri sanki oxucu kütləsinə yeni stimul verir. Folknerin həm hekayələri, həm də romanlarının süjet xətti ancaq real həyatdan götürülmüşdür. Folkner Yoknapatofa saqasını yaradarkən öz qarşısına xəyalında uydurduğu bu məmləkətin konkret tarixini yaratmağı məqsəd qoymamışdı. Ancaq məsələnin obyektiv cəhəti bundadır ki, Folknerin böyüdüyü diyara bənzəyən Yoknapatofanın tarixi bütün detallari ilə xronoloji ardıcıllıqla təsvir edilir və təsvir olunan hadisələr bu vilayətin təqribən bir əsrə yaxin tarixini əhatə edir.

Müharibədən sonrakı dövr ərzində Birləşmiş Ştatların həyatında ən kəskin ziddiyyətlərdən biri irqi ayrıseçkilik problemi idi. Amerikanı məngənəsinə alan bu problem bir çox Amerika yazıçılarının yaradıcılığından qırmızı xətlə keçir. U.Folkner də bu yazıçıların ön sırasında idi. Folknerin hekayə və romanlarındakı irqi ayrıseçkilik problemi dar bir çərçivədə deyil, tam geniş bir kontekstdə təsvir edilir. Bu baxımdan Folknerin "Avqustda işıq" romanı çox böyuk əhəmiyyət kəsb edir. "Ən gözəl uçuş", "Qırmızı-qırmızı qızılgül", "Həmin gün şər qarışanda", "Bağban", "Uoş", "Saçlar", "Yanğın" kimi gözəl və dəyərli əsərlər dilimizə tərcümə olunmuş və oxucu kütləsinin rəğbətini qazanmışdır.

***Mənsurə Ağayeva,***
***İngilis dili kafedrasının müəllimi***

# Dost qazanmaq və adamlara təsir göstərmək sənəti

***Amerikanın görkəmli mütəxəssisi Deyl Karneginin “Dost qazanmaq və adamlara təsir göstərmək sənəti” adlı kitabından Beynəlxalq jurnalistika kafedrasının müdiri, filologiya elmləri namizədi, dosent Həmid VƏLİYEVin tərcüməsi əsasında...***

*(Əvvəli ötən sayda)*

Mən on il Avraam Linkolnun həyat yolunu öyrəndim və ”Naməlum Linkoln” adlanan kitabımın yazılmasına və köçürülməsinə üç il vaxt sərf etdim. Belə düşünürəm ki, Linkolnun şəxsiyyətini və ailə həyatını mümkün qədər və ətraflı öyrəndim. Linkolnun adamlarla ünsiyyətdə istifadə etdiyi üsulları ayrıca tədqiq etdim. O, tənqidlə məşğul olmağı özünə rəva görürdümü? Əlbəttə. Gənc olub İndiana ştatındakı Picon-Krik vadisində yaşayarkən ətrafdakıları nəinki tənqid edir, həm də onları lağa qoyan məktublar və şerlər yazıb kənd yollarına səpələyirdi.

Burada isə həmin şerləri və məktubları yəqin ki, tapmalı idilər. Bu cür məktublardan biri ünvan sahibinə bütün ömrü boyu gizli saxlanmış inciklik yaratmışdı.

***Linkoln Sprinqfilddə, İllinoys ştatında təcrübə keçən vəkil olandan sonra belə qəzetlərdə dərc etdirdiyi məktublarında öz rəqiblərinə açıq hücum edirdi. Lakin bir dəfə lap ağ elədi.***

1842-ci ilin payızında “Sprinqfild cornel” qəzetində dərc olunmuş imzasız məktubunda şöhrətpərəst, təcavüzkar əhval-ruhiyyəli siyasətçi Ceyms Şilds adlı irlandiyalını çox qəzəblə lağa qoydu. Bütün şəhər qəhqəhə çəkdi. Dəymədüşər və dikbaş Şilds qəzəbindən coşub-daşırdı. İrlandiyalı məktub müəllifini müəyyənləşdirdi, ata minib Linkolnun yanına yollandı və onu duelə çağırdı. Linkoln savaşmaq istəmirdi. Duelin əleyhdarı idi, lakin çağırışdan yayına bilmədi. Ona silah seçmək imkanı verildi. Əlləri çox uzun olduğundan süvari qılıncını seçdi və Uest-Poyntun məzunundan həmin silahı işlətməyə dair bir neçə dərs aldı. O və Şilds təyin olunmuş gündə Missisipi çayının qumlu sahilində görüşüb vuruşmağa hazırlaşdılar. Lakin onların şahidləri son dəqiqədə işə qarışıb dueli dayandırdılar.



Bu, Linkolnun həyatında ən kədərli epizod olmuş və adamlarla rəftarda onun üçün əvəzsiz dərs rolunu oynamışdı. Bundan sonra Linkoln heç vaxt təhqiramiz məktub yazmamışdı. Bundan sonra heç vaxt heç kəsi lağa qoymamışdı. Bu vaxtdan sonra, demək olar, heç vaxt heç kəsi nədən ötrüsə tənqid etməmişdi.

Vətəndaş müharibəsi dövründə Linkoln Potomak ordusunun komandanı vəzifəsinə dəfələrlə yeni generallar təyin edirdi və onlardan hər biri - MakKlellan, Poup, Bernsayd, Huker, Mid - öz vəzifələrinin öhdəsindən son dərəcə pis gəlirdi ki, bu da Linkolnu ümidsiz vəziyyətə salırdı. Ölkənin yarısı bu fərsiz generalları amansızcasına pisləyirdi, lakin Linkoln əmin-amanlığı qoruyub saxlayırdı “kiməsə qəzəblənmədən və hamıya mərhəmət hissi bəsləməklə”. ***Onun sevimli məsələlərindən biri belə idi: “Pisləməyin, sizi də pisləməsinlər”.***

Xanım Linkoln və başqa birisi cənublular barəsində kəskin söz söyləyəndə, Linkoln deyirdi: “Onları tənqid etməyin, bu cür vəziyyətdə biz də belə edərdik”.

***Yenə də kiminsə nə vaxtsa tənqid üçün bəhanəsi olubsa, o da Linkolndur. Təkcə bir misal gətirək.***

Hettisberq yanında döyüşlər 1863-cü il iyul ayının ilk üç günü ərzində davam etdi. İyulun 4-ü gecəsi, misli görünməmiş yağış nəticəsində daşqın hər yeri altına alan zaman general Li cənuba tərəf geri çəkilməyə başladı. O, məğlub olmuş ordusu ilə Potomak çayına çatarkən qarşısında keçilməsi mümkün olmayan coşub-daşmış çay gördü, arxada isə müzəffər federal ordu dururdu. Tələyə düşmüşdü, buradan qurtuluş yox idi. Linkoln bunu başa düşürdü. Onun qarşsında Linin ordusunu əsir almaq və elə buradaca müharibəni qurtarmaq üçün çox gözəl, göydəndüşmə, əlverişli imkan yaranmışdı. Buna görə də böyük ümiddən ruhlanmış Linkoln Midə əmr etdi ki, hərbi şuranı çağırmasın, dərhal Linin ordusuna hücuma başlasın. O öz əmrini teleqram vasitəsilə verdi, bunun ardınca isə Midin yanına xüsusi qasid göndərib, dərhal əməliyyatlara başlamağı tələb etdi.

Bəs general Mid necə hərəkət etdi? O, tapşırılanın tamamilə əksini elədi. Linkolnun əmrini bilavasitə pozaraq, hərbi şura çağırdı, lakin qətiyyətsizlik göstərib, məsələni uzatdı. Teleqrafla hər cür bəhanələr gətirir və Liyə qarşı hücumdan qəti imtina edirdi. Ən nəhayət, çayda su azaldı və Li öz ordusu ilə Potomakdan keçərək geri çəkildi.

Linkoln qəzəblənmişdi. Oğlu Robertə dedi: “Bu nə deməkdir? Ulu tanrı, bu nə deməkdir? Onların əlimizə keçmələri üçün yalnız əllərimizi irəli uzatmaq kifayət idi. Lakin mənim dediyim və etdiyim heç nə ordumuzu yerindən tərpənməyə məcbur edə bilmədi. Yaranmış vəziyyətdə hər hansı general Lini məğlubiyyətə uğrada bilərdi. Əgər mən oraya getsəydim, onu özüm darmadağın edərdim!”.

***Həddindən artıq məyus olmuş Linkoln oturub, Midə aşağıdakı məktubu yazdı. Yaddan çıxarmayın ki, həyatının həmin dövründə o, ifadələrində son dərəcə mülayim və təmkinli idi. Ona görə də Linkolnun 1863-cü ildə yazdığı bu məktub şiddətli töhmətə bərabər idi. Budur məktub:***

“Əziz general!

Elə düşünürəm ki, Linin geri çəkilməsi ilə əlaqədar bədbəxtliyin bütün miqyaslarını təsəvvür etmirsiniz. Onu asanlıqla ələ keçirə bilərdik və bu, son vaxtlardakı digər müvəffəqiyyətlərimizlə yanaşı, müharibəyə son qoyardı. İndi isə müharibə qeyri-müəyyən müddətə uzana bilər. Əgər Siz ötən bazar ertəsi Liyə inamla hücum etməyi bacarmadınızsa, bunu indi, onun çayın cənubunda olduğu bir zamanda, o zaman malik olduğunuz qoşunların üçdə ikisini döyüşə apara biləcəyinizi nəzərə alsaq, nə edə bilərsiniz? İndi Sizin çox şeyə nail olacağınıza inanmaq ağılsızlıq olardı. Mən indi bunu gözləmirəm. Siz ən gözəl imkanı əldən verdiniz və mən bundan son dərəcə dilxoram”.

*(ardı var)*

# DÜNYA



Dünya bir ümmandır, sirri bilinməz,
Günahların axirətdə silinməz.
Yeganə dünyadır, yaşı bilinməz,
Bizə Nuh-Nəbidən qalan dünyadır.

Dünyanın işinə salanda nəzər
Fitnələr, yalanlar aləmi gəzər.
Hər an zəifləri güclülər əzər,
Fağırı, zalımı olan dünyadır.

Uyma bu dünyanın malı, mülkünə,
Bağlıyıq hamımız Tanrı hökmünə.
Bəzən dözmək olmur tale yükünə,
Sevinci, kədəri olan dünyadır.

Deyilən sözlərdə vardır həqiqət:
”Yaşamaq yanmaqdır, yanasan gərək”.
Dünyanın, zamanın qədrini bilək,
Bizə həyat dərsi verən dünyadır.

***✍ İlahə İbrahimova,***
***Fizika fakültəsinin II kurs tələbəsi***

# XÜLYALAR, XƏYALLAR VƏ REALLIQLAR

**Xülya - əldə olan vasitələrlə həyata keçməsi qeyri-mümkün olan şeylərə deyilir. Xəyal - əldə olan vasitələrlə mümkün olan, lakin hələ yerinə yetirilməyən şeylərə deyilir. Xəyalın yerinə yetirilməsi - gerçəkləşməsi isə reallıq adlanır. Qeyd edək ki, xəyallar - dedikdə mütləq: “olacaq” - baş verəcək şeylər deyil, mümkün ola biləcək şeylər nəzərdə tutulur. Məsələn, əski dönəmlərdə uzaq səfərdə olan yolçu belə deyərdi: “Kaş nağıldakı sehrli güzgüm olardı ki, onunla əzizlərimlə danışardım!”. Bu, öz dövrünün xülyasıdır. Artıq belə “güzgü”nü (telefonu) kəşf edən insan bu xülyanı reallığa çevirmişdir. Başqa bir misal. Bir nəfər arzu edir ki, kaş oxuyub tələbə olardım, maşınım, bahalı evim... - bir sözlə, gözəl karyera qurardım! Bu, xəyaldır və baş tuta da bilər, tutmaya da. Lakin o demək deyil ki, onun gerçəkləşməsi heç vaxt mümkün olmayacaq.**

İnsan beyni kompyuter kimidir, o, daima sadədən mürəkkəbə doğru inkişaf etməkdədir. İbtidai, orta və ali pillələrdən keçən bu inkişaf yolunun özü də zaman və məkana görə dəyişəndir. Xülyalar, xəyallar və reallıqlar da “adi”dən “ali”-yə kimi gedən bu yola bənzəyir. Bəşər övladının bilgi toplaması, əsasən, iki yolla, yaxud qismən bunun hər ikisinin qarşılığı ilə olur: müşahidə və təcrübə.




Müşahidə - yəni şahidi olduğu və uzun zaman təkrarlanan hadisələrdən alınan nəticə. Məsələn, qədim misirlilər hər il Nil çayının eyni vaxtda daşdığını müşahidə etməklə bir daşqından o biri daşqınına qədərki vaxtı saymaqla “il” anlayışını öyrənmiş və bu ili 30 gündən ibarət 12 aya bölmüşlər, daşqına qədərki boş qalmış günlərin yerini doldurmaq üçün ilin sonuna 5 gün artırmışlar. Beləliklə, bir il 365 gündən ibarət olurdu.

Təcrübə - əldə olan bir və ya bir neçə obyektin vasitəsilə aparılan işlərin nəticəsində qazanılan bilgi. Məsələn, əski dönəmlərdə insanlar misin tərkibinə müxtəlif qatışıqlar (mərgümüş, sürmə, nikel və s.) əlavə etməklə misdən daha bərk metal olan tuncu almışlar. Mis yumşaq metal olduğundan ondan düzəldilən əşyalar tez xarab olur. Buna görə də onun davamlılığını artırmaq üçün aparılan uzun təcrübələr nəticəsində tunc kəşf olunmuşdur.İnsanlar çuqunu təkrar əritməklə dəmir, dəmiri təkrar əritməklə isə polad almışlar. Beləliklə, əski çağlardan ta günümüzə qədər insan övladı məhz müşahidə və təcrübənin köməkliyi ilə elmini artıraraq müasir elm və texnologiyanı yaratmışdır.

Təsadüfi deyil ki, intibah dövrünün tanınmış nümayəndəsi - rəssam, musiqiçi, ixtiraçı alim və mühəndis olan Leonardo da Vinçi paraşüt, təyyarə, sualtı qayıq və s. kimi texniki vasitələrin hazırlanma sxemini tərtib etmişdir. Onun təxəyyülündəki bu kəşflər öz dövründə olmasa da, hazırda gerçəkləşmişdir.

Beləliklə, bütün bunlardan belə nəticəyə gəlmək olar ki, xülya nisbidir, yəni dəyişkəndir. O, öz dövründə mövcud olan vasitələrə görə qeyri-mümkündür. Elə buna görə də xülya - qeyri-mümkün olan şey adlanır. Lakin başqa dövrün mövcud vasitələrinə görə onu reallığa qədər aparıb gerçəkləşdirmək mümkündür.

***✍ Elşad Əzimov,***
***Tarix fakültəsinin III kurs tələbəsi***

## ETİBARSIZDIR

Biologiya fakültəsinin 1-ci kurs tələbəsi Xanızadə Sevina Mübariz qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 3-cü kurs tələbəsi Ağayeva Mənzərə Azər qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Fizika fakültəsminin 1-ci kurs tələbəsi Cəfərli Rüfanə Müzəfffər qızına məxsus tələbə vəsiqəsi itdiyiyi üçün etibarsız sayılır

Biologiya fakültəsinin 3-cü kurs tələbəsi Əhmədova Venera Süleyman qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Tarix fakultəsinin 2-ci kurs tələbəsi Əşrəfova Gülşən Fərhad qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Tarix fakultəsinin 4-cü kurs tələbəsi Kərimov Pərviz Etibar oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Şərqşünaslıq fakültəsinin 1-ci kurs tələbəsi Musayev Kamran İsmayıl oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 2-ci kurs tələbəsi Məmmədli Orxan Atamoğlan oğluna məxsus tələbə vəsiqəsi itdiyiyi üçün etibarsız sayılır.

Şərqşünaslıq fakultəsinin 1-cü kurs tələbəsi Kərimova Amaliya Şahin qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Filologiya fakultəsinin 2-ci kurs tələbəsi Samirə Rafael qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 1-ci kurs tələbəsi Ələkbərov İbrahim Məmmədtağı oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 1-ci kurs tələbəsi Qəşəmli Vasif Asif oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kitabxanaçılıq və İnformasiya fakültəsinin III kurs tələbəsi Həsənov Dursun Eyvaz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kitabxanaçılıq və İnformasiya fakültəsinin III kurs tələbəsi İbrahimov Elvin Telman oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!
Bakı Universiteti
№ 05 (1428) 27 aprel 2012-ci il

SON SƏHİFƏ

**Tələbələrin nəzərinə!**

***Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə "Bakı Universiteti" qəzetinə müraciət edin.***

# Düzgün danışmağın gözəlliyi



Danışarkən məqsədə çatmaq bizim harada, nə və necə danışmağımızdan asılıdır. İlk növbədə, vəziyyətin xüsusiyyətlərindən asılı olaraq, çıxış üçün müəyyən funksional nitq üslubu seçilməlidir. Funksional üslublar bir-birindən dildaxili əlamətlərinə görə: seçim prinsipləri, ümummilli dil vasitələrinin uzlaşdırılması və təşkilinə görə fərqləndirilirlər. Məlumdur ki, beş funksional üslub mövcuddur: rəsmi-işgüzar, elmi, publisistik, bədii və məişət üslubu.

Natiq ədəbi dildə, yəni yazılı nitqin qanunlarına tamamilə uyğun şəkildə, eyni zamanda şifahi nitqin xüsusiyyətlərini və dinləyicilərinin psixologiyasını nəzərə almaqla danışmalıdır. Ədəbi dilin məhz bu növü "yazılı nitqin şifahi kimi saxtalaşdırılması" adlanır. Müasir publisistik nitqin bu üslub xüsusiyyəti sadəliyin qüsursuz ədəbi-tələffüz vərdişləri ilə uzlaşdırılmasını nəzərdə tutur. Camaat qarşısında çıxışda kitab və danışıq dili üzvi surətdə birləşməlidir. Çünki onlar bir-birini tamamlayaraq özünəməxsus natiqlik üslubu yaradır.

Kütlə qarşısında çıxış zamanı müvəffəqiyyətə dəqiq kompozisiya, dəlillərin inandırıcılığı, dilin sadəliyi və emosionallığı ilə nail olmaq mümkündür. ***Ona görə də çıxışın anlaşıqlılığını və səmərəliliyini müəyyən edən əsas üslub əlamətlərini bilmək lazımdır:***

"Düzgünlük (ədəbi normalara əməl edilməsi);

"Aydınlıq və sadəlik;

"Qısalıq;

"Zənginlik və emosionallıq.

**Danışarkən məqsədə çatmaq bizim harada, nə və necə danışmağımızdan asılıdır. İlk növbədə, vəziyyətin xüsusiyyətlərindən asılı olaraq, çıxış üçün müəyyən funksional nitq üslubu seçilməlidir.**

Aydınlıq və sadəlik - hər şeydən əvvəl, materialın dinləyicilər üçün aydın, başadüşülən olmasıdır. Mürəkkəb və ciddi məsələlər haqqında anlaşıqlı danışmaq, ən sadə vasitələrin köməyi ilə ən mürəkkəb olanı ifadə etmək, insanların səni başa düşməməsinin mümkünsüzlüyünə nail olmaq bacarığıdır.

Qısalıq - məlum olduğu kimi, "istedadın bacısı"dır. Bizim tez-tez rastlaşdığımız "uzunçuluq" mərəzi ilə əlaqədar danışarkən Siseron hələ o vaxtlar göstərirdi ki, "natiqin ən böyük ləyaqəti təkcə lazım olanı söyləmək yox, həm də lazım olmayanı söyləməməkdir". Mark Tven isə yazır ki, bir dəfə missioner moizəçinin nitqi elə xoşuna gəlir ki, ona bir dollar ianə vermək qərarına gəlir. Moizə bir saat davam edəndə Mark Tven öz ianəsini yarım dollara endirmək qərarına gəlir. Moizə daha yarım saat uzanır və o, qərara alır ki, heç nə verməyəcək. Ruhani iki saat sonra moizəsini bitirəndə Mark Tven itirdiyi vaxtın əvəzini kompensasiya etmək üçün onun qarşısındakı boşqabdan bir dollar götürür.

Zənginlik və emosionallıq. Hər kəs öz doğma dilini yaxşı bilməli və ondan düzgün istifadə etməyi bacarmalıdır. Natiqin nitqinin zənginliyi, hər şeydən əvvəl, onun fəal və qeyri-fəal lüğət və frazeoloji söz ehtiyatı, həmçinin bu ehtiyatdan istifadə edərkən üslub çevikliyi ilə müəyyən olunur.

Filoloqların hesablamalarına görə, müasir mədəni insanın fəal söz ehtiyatı 3-4 min vahid, qeyri-fəalı isə 15 min vahiddən ibarətdir. Natiqin fəal söz ehtiyatı nə qədər geniş olarsa, o, lazım olan sözü daha asanlıqla "tapar". Nitqin zənginliyinin və üslub çevikliyinin çoxsaylı göstəricilərindən biri də dilin sinonim ehtiyatlarından istifadə bacarığıdır.

Nitqdə məcazlar və bədii ifadə vasitələri qabarmamalı, gözə girməməli, lazım olmayan, "gözəllik üçün" edilən əlavə kimi qəbul olunmamalıdır. Obrazlı ifadələr nitqdə o qədər təbii yer tutmalıdır ki, həmin nitqi onlarsız təsəvvür etmək mümkün olmasın.

***✍ Fikrət Şiriyev,***
***Həmkarlar İttifaqı Komitəsinin sədri,***
***dosent***

Mədəniyyət

## Müasir poeziyadan seçmələr

...Susa-susa bəzən dedim sözümü,
Dinə-dinə bəzən sözüm olmadı...

...Həyat səni güldürəndə gülürdün,
Həyat səni ağladanda gül görüm...

...Dünyanın ən uzun, ən çətin yolu
Mənim öz içimdən keçən yol imiş...

***Bəxtiyar Vahabzadə***

...Bu dünya nərdivandı,
Qalxanda mehribandı,
Enəndə nə yamandı...

***✍ Nəriman Həsənzadə***

...Hünərin var, bala böyüt,
O böyüsün, sən qocalma...

...Axşamdan bəri yağış yağır
İslanıb sinəmdə ürəyim,
ürəyimdə sözlərim.

***✍ Fikrət Qoca***

...Ürəyim əbədi sevgi süzgəci,
Sevgi ürəyimdən keçir, durulur.

...Dünya yaranandan iki hədəf var:
Güllənin hədəfi, sözün hədəfi.

...Şairin haqq yolu unudulantək
Dünyanın işləri dolaşıq düşür...

***✍ Sabir Rüstəmxanlı***

...Allah da göydə təkdi, tək,
Onun da dərdini çəkək.
Bu dünyada dərdsiz ürək
Susuz dəyirman kimidir.

...Bütün yollar çıxıb gedir
Ömrümüzün axırına...

...Ölüm nədi?
Hamının son vətəni
Son yarpağı qoparan son küləkdi.
Bu dünyada sevgilərin çətini
Qocalıqda özümüzü sevməkdi...

***✍ Ramiz Rövşən***

...Mənim dərdlərimin ayaqları var,
Harda olsa, gəlib tapacaq məni.

...Elədiklərimdən yaxam qurtarmaz,
Eləmədiklərim yandırır məni...

***✍ Musa Yaqub***

## Həsən bəy Zərdabiyə aid yeni əşyalar tapılıb



***Zərdab rayonunun Qoruqbağı kəndində Həsən bəy Zərdabiyə aid yeni əşyalar tapılıb.***

Həmin əşyalar - 2 ədəd kasa kənddə yaşayan Şirinovlar ailəsində aşkarlanıb. 116 yaşı olan bu kasaları Həsən bəy Zərdabi 1895-ci ildə kənd sakini Məmməd Səmədova hədiyyə edibmiş. Faktın üstü Məmməd Səmədovun nəvəsi, hazırda 100-ə yaxın yaşı olan Sərəncam nənənin dediklərindən sonra açılıb: "1895-ci ildə babamın ikinci qızının toyu olmalı imiş. Həsən bəy Zərdabi hədiyyələri məhz buna görə bağışlayıbmış. O vaxtdan bu kasalar əziz bir əşya kimi qorunub saxlanılır. Rəhmətlik babam bu əşyaları "bəy kasaları" adlandırırdı. Elə indi də "bəy kasaları" deyəndə nəslimizdə hər kəs söhbətin hansı əşyadan getdiyini yaxşı bilir".

# Elanlar

## Əlavə təhsil almaq üçün müsabiqə

*Bakı Dövlət Universiteti ayrı-ayrı ixtisas sahələri üzrə peşəkar jurnalist kadrlarının hazırlanması üçün dəqiq, təbiət və humanitar elmlər sahəsində bakalavr və magistratura pillələrini bitirmiş və jurnalistikaya meyilli gəncləri ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatının professional səviyyədə işıqlandırılmasını təmin etmək məqsədi ilə jurnalist ixtisası üzrə əlavə təhsil almaq üçün müsabiqə elan edir.*

*Müsabiqədə xüsusi qabiliyyəti olan gənclər iştirak edə bilər.*

*Arzu edənlər əlavə məlumat almaq üçün Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanlığına müraciət edə bilərlər.*

*Qəbul qaydaları və müsabiqənin keçirilmə tarixi haqqında rəsmi elan mətbuatda dərc ediləcəkdir.*

*Mayın 22-si saat 12.00-də Jurnalistika fakültəsində alimlərin və gənc tədqiqatçıların "Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi" adlı beynəlxalq elmi-praktik konfransı keçiriləcək. Konfransın materialları çap olunacaq.*

*Konfransda çıxış etmək istəyənlər elmi məqalələrini mayın 10-dək müvafiq kafedralara təqdim edə bilərlər.*

***Qeyd:*** *Məqalələrin rus, ingilis və türk dillərində yazılması daha məqsədəuyğun olardı.Əlavə məlumat almaq istəyənlər dekanlıqla əlaqə saxlasınlar.*

## AMEA-da həqiqi və müxbir üzvlüyə seçkilərin vaxtı müəyyənləşib

*Azərbaycan Milli Elmlər Akademiyasına həqiqi və müxbir üzvlüyə seçkilər iyunda keçiriləcək. Artıq seçkidə iştirak edəcək namizədlərin sənədləri qəbul olunur. Bu günlərdə sənədlərin ekspertizasına başlanılacaq və hər bir namizəd haqqında rəy formalaşacaq.*

## Tarixdə 22 aprel...

### Beynəlxalq yer Günü



Yer gününün keçirilməsində məqsəd ətraf mühitin mühafizəsi işində insanları bir araya toplamaqdır. İlk dəfə belə bir təşəbbüs 1970-ci ildə ABŞ-da yaranıb və zamanla beynəlxalq status alıb.

## Tarixdə 18 aprel...

### Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür

Bütün dünyada qeyd edilən bu əlamətdar gün 1983-cü ildə UNESCO-nun yanında Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının Beynəlxalq Assambleyası tərəfindən təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.



***Azadqadın.az***

**Baş redaktor:** Anzulə ƏMİROVA

**Redaksiya heyəti:** Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamilla Müslümova, Salam Muxtarov, Kəramət Böyükçöl

**Redaksiyanın ünvanı:** Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 539-03-64, 539-04-78
e-mail: anzule@mail.ru

**Sifariş: 162**
**Tiraj: 2000**

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır